www.amu.edu.az
# TƏBİB
Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-21 (1782) 15 dekabr 2023-cü il



## ATU-da Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

**Rektor, professor Gəray Gəraybəyli: "Tarix onun dahiliyini və uzaqgörənliyini hər dəfə təsdiq edir"**

səh. 2

### Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi yad olunub

səh. 2

### Magistrantlar üçün iki növbədə tədris təşkil edilib

səh. 5

### Havalar soyuduqca, virusların "donu açılır"

səh. 6



### Ağır diaqnozun xəstəyə dərhal deyilməsini doğru hesab etmirəm

Rektor, professor Gəray Gəraybəyli: Çox istəyərdim, insanlar mehriban olsunlar, bir-birini dinləməyi bacarsınlar

səh. 3

### Tədrisin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzindədir

*İmtahan ekspertləri ilə görüşdə bir sıra neqativ hallar müzakirəyə çıxarılıb*

səh. 4

### Qızılcanın artım tempi təşviş və qorxuya səbəb olmamalıdır

*Professor Musa Qəniyev deyir ki, bu infeksiyanın ölüm əmsalı çox aşağıdır*

səh. 5



### Biliklərini elmi fəaliyyətlə zənginləşdirən tələbələr uğur qazanır

ATU-da tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb olunması üçün həvəsləndirici vasitələr tətbiq edilir

səh. 5

# Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi yad olunub



**Dekabrın 12-i müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü idi.**

Ümummilli Liderin vəfatının 20-ci ildönümü ilə əlaqədar Səhiyyə Nazirliyinin rəhbər şəxsləri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hörmət və ehtiramla anaraq, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də mərasimdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. "Heydər Əliyev İli" çərçivəsində Səhiyyə Nazirliyi və nazirliyin tabeliyində olan qurumları, o cümlədən Azərbaycan Tibb Universiteti tərəfindən Bakı şəhərində və respublikanın bölgələrində müxtəlif tədbirlər və beynəlxalq elmi-praktik konfranslar keçirilib.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan səhiyyəsinə və tibb işçilərinə həmişə xüsusi diqqət və qayğı göstərib. Ölkəmizdə səhiyyənin inkişafı və tibbi kadrların hazırlanması məhz Ulu Öndərin adı ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevi dərin hörmət və ehtiramla anırıq.

# ATU-da Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

## Rektor, professor Gəray Gəraybəyli: "Tarix onun dahiliyini və uzaqgörənliyini hər dəfə təsdiq edir"

**Dekabrın 12-də Azərbaycan Tibb Universitetində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. Əvvəlcə Ulu Öndərin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Anım tədbirində çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Ümummilli Liderin böyük xilaskarlıq rolundan, müstəqil dövlətimizin qurulmasındakı müstəsna xidmətlərindən danışıb. Ulu Öndərin anım tədbirlərində ənənəvi olaraq professor-müəllim heyətinin iştirak etdiyini söyləyən rektor bildirib ki, bügünkü tədbiri tələbələrin iştirakı ilə keçirməyin xüsusi önəmi var: "Çünki hər bir azərbaycanlı üçün bu tarixi günlərin əhəmiyyəti böyükdür. Amma mən hesab edirəm ki, Heydər Əliyev şəxsiyyəti haqqında gənclərimizin daha ətraflı bilgiyə malik olması xüsusən vacibdir. Siz də öyrəndiklərinizi gələcək nəsillərə ötürməlisiz. Bu gün Azərbaycan xalqı tarixinin ən parlaq səhifələrindən birini yaşayır. Siz gəncsiniz, bügünkü firavan həyatınızı, Azərbaycanın dünya arenasında özünəməxsus yer tutmasını, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsini 30 il əvvəl təsəvvür etmək belə çətin idi".

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmizdən qürurla söhbət açan rektor qeyd edib ki, hətta iki-üç il əvvəl Xankəndinin mərkəzində hərbi parad keçirəcəyimiz bizə fantastik yuxu kimi görünərdi. Şükürlər olsun ki, artıq xəyallarımız reallaşıb: "Mən istərdim ki, siz həkimlik peşənizlə yanaşı, tariximizi də yaxşı öyrənəsiniz. Biləsiniz ki, bu tarixi qələbə asanlıqla başa gəlməyib. Biz bütün dünyaya sübut etdik ki, Azərbaycan müstəqil bir dövlətdir, xalqımız öz ərazi bütövlüyünü, suverenliyini bərpa etməyə qadirdir. Zəfərimizdən danışanda haqlı olaraq deyirik ki, bu böyük qələbə möhtərəm prezidentimiz İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində mümkün olub. Eyni zamanda unutmuruq ki, şanlı qələbəmizin bünövrəsi Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub".

Azərbaycanda səhiyyə sahəsinin inkişafının və peşəkar tibbi kadrların hazırlanmasının da məhz Ulu Öndərin adı ilə bağlı olduğunu vurğulayan rektor diqqətə çatdırıb ki, Heydər Əliyevin xalqımız, dövlətimiz və tariximiz qarşısında xidmətləri misilsizdir: "Tarix onun dahiliyini və uzaqgörənliyini hər dəfə təsdiq edir. Keçmiş günlərə nəzər saldıqda, Ulu Öndərin Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bildiyini görürük. O zaman müxtəlif qüvvələrin təsiri nəticəsində Azərbaycanın dövlətçiliyi, ərazi bütövlüyü sual altında idi. Məhz Heydər Əliyevin müdaxiləsi, onun yürütdüyü müdrik siyasət nəticəsində bu təhlükələr sovuşdu. Azərbaycan dövlətçiliyi bütün qüvvələrə qalib gəldi. Bu gün bizim ölkəmiz ən qabaqcıl ölkələrin sırasındadır. Azərbaycan sanki bir xoşbəxtlik və sabitlik adasıdır".




Hakimiyyətinin ikinci dönəmində Heydər Əliyevin universitemizdə iki dəfə olduğunu, hər dəfə proqram xarakterli nitqlərlə professor-müəllim heyəti qarşısında çıxış etdiyini yada salan rektor, bu dahi şəxsiyyətin bütün sahələrdə silinməz izlər qoyduğunu bildirib.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov da anım tədbirində çıxış edərək Heydər Əliyevin Azərbaycanın tərəqqisi, inkişafı naminə həyata keçirdiyi həm siyasi, həm iqtisadi islahatlardan söz açıb. Bildirib ki, Ulu Öndərin xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi dövlət üçün, xalq üçün bir qurtuluş günü idi: "Təbii ki, Ulu Öndərin ən böyük şah əsəri müstəqil, suveren Azərbaycan dövlətidir. Fəxrlə deyə bilərik ki, onun davamçısı İlham Əliyevin qətiyyəti, müzəffər ordumuzun qəhrəmanlığı sayəsində, şəhidlərimizin qanı-canı, qazilərimizin sağlamlığı bahasına suverenliyimiz tam bərpa olundu".

Çıxışında Ulu Öndərin gənclər siyasətindən danışan ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Məhəmməd Məmmədov qeyd edib ki, ölkəmizdə inkişaf edən və inkişaf etməkdə olan hansı sahəyə baxsaq, Heydər Əliyevin imzasını görürük: "Sirr deyil ki, Ulu Öndərin ən çox yatırım etdiyi sahə gənclər sektorudur. Heydər Əliyev hər zaman gənclərin formalaşmasına, onların inkişaf etməsinə xüsusi diqqət yetirirdi". Bunun bariz nümünəsi kimi Gənclər və İdman Nazirliyinin yaradılmasını, Gənclər Gününün təsis edilməsini örnək gətirən gənc natiq vurğulayıb ki, belə tarixi şəxsiyyətlər hər dövlətə, hər xalqa nəsib olmur.

Anım tədbirində dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən "Vətənə, xalqa həsr edilən ömür" sənədli filmi də nümayiş etdirilib.

**Arif MƏMMƏDLİ**



# Erasmus Tibb Mərkəzinin nümayəndələri ilə onlayn görüş keçirilib

**Azərbaycan Tibb Universiteti beynəlxalq əlaqələrinin genişləndirilməsi üzrə fəaliyyətini inkişaf etdirməkdədir. Erasmus Universitetinin Tibbi Mərkəzinin (Erasmus MC, Rotterdam, Niderland) nümayəndə heyəti ilə keçirilmiş görüş də bu qəbildəndir.**

Rektor, professor Gəray Gəraybəyli Azərbaycanın ən böyük və qocaman universitetlərindən olan ATU-nun fəaliyyəti haqqında qonaqlara məlumat verib. O, beynəlxalq əməkdaşlıq layihələrinin universitetin fəaliyyətində mühüm yer tutduğunu, artıq dünyanın bir çox qabaqcıl ali məktəbləri ilə əlaqələr qurulduğunu bildirib.

Görüşdə 30 minə yaxın tələbəsi olan Erasmus Rotterdam Universitetinin Tibb Mərkəzinin Hollandiyada ən böyük, qabaqcıl akademik mərkəzlərdən biri olduğu vurğulanıb. Ümumilikdə 12 fakültəsi olan universitetdə 1400-dən çox professor və ixtisaslı müəllim çalışır. Görüşdə gələcəkdə birgə fəaliyyət üçün ilk addım olaraq, qarşılıqlı əməkdaşlıq müqaviləsinin imzalanması təklifi irəli sürülüb.

Tədbirdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Erasmus Tibbi Mərkəzinin Eksperimental qastroenterologiya və hepatologiya üzrə professoru, laboratoriya rəhbəri Maikel P.Peppelenbosch, Mərkəzin beynəlxalq əlaqələr və "Erasmus+ & MSCA grants" proqramı üzrə baş məsləhətçisi, tibb üzrə fəlsəfə doktoru Raoul Tan və Mərkəzin Transplantasiya İnstitutunun elmi işçisi, tibb üzrə fəlsəfə doktoru Ruslan Məmmədov iştirak ediblər.

# "Səhiyyədə müasir nailiyyətlər" mövzusunda konfrans təşkil olunub

**Respublika Diaqnostika Mərkəzinin təşkilatçılığı ilə dekabrın 2-də Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Səhiyyədə müasir nailiyyətlər" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və dahi şəxsiyyətin keçdiyi həyat yolu və ictimai-siyasi fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və Tərbiyə işləri üzrə prorektor, dosent Zülfüqar Musabəyov da tədbirdə iştirak ediblər.



Açılış nitqi ilə çıxış edən Respublika Diaqnostika Mərkəzinin baş həkimi Könül Xəlilova bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq, silinməz iz qoymuş böyük şəxsiyyət, müdrik dövlət xadimi kimi düşüb. Qeyd edib ki, Ulu Öndər bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsini, tibb elmi və tibb təhsili sistemini də daim diqqət mərkəzində saxlayıb. Onun rəhbərliyi illərində ölkədə həkim kadrlarının və təbabət alimlərinin hazırlığında yüksəliş baş verib, yeni elmi mərkəzlər açılıb, ölkədə tibb elminin müxtəlif istiqamətləri üzrə konfranslar, forumlar keçirilib. Ümummilli liderin səhiyyə sahəsinə diqqəti və onun inkişafı üçün gördüyü işlər az bir vaxtda Azərbaycanı tək ümumittifaq miqyasında deyil, həm də beynəlxalq arenada qabaqcıl mövqelərə çıxarıb.

Qeyd edilib ki, son illərdə dünya standartlarına uyğun inkişaf yolunu tutmuş Azərbaycan səhiyyəsinin nüfuzu nəzərəçarpacaq dərəcədə artıb. Bu gün ölkəmizdə bir sıra ağır xəstəliklərin müalicəsi, unikal və mürəkkəb əməliyyatların icrası, yeni metodların tətbiqi əhalinin sağlamlığının qorunması istiqamətində əsaslı surətdə inkişaf edib.

Tədbirdə Türkiyə və Azərbaycandan bir sıra tanınmış mütəxəssislərin tibbin müxtəlif sahələrinə dair maraqlı mövzularda çıxışları dinlənilib.

# Ağır diaqnozun xəstəyə dərhal deyilməsini doğru hesab etmirəm

## Rektor, professor Gəray Gəraybəyli: Çox istəyərdim, insanlar mehriban olsunlar, bir-birini dinləməyi bacarsınlar

**Tanrı Yer üzünün əşrəfi insanı xəlq edəndə, ilk olaraq palçıqdan yoğurduğu bir vücuda nəfəsilə üfürərək onu cana gətirib. Tanrının nəfəsindən çıxan ruh elə həmin vaxtdan bu günədək insanın varlığına hakim kəsilərək, onu idarə edib. Gah güldürüb, gah ağladıb. Gah coşdurub, gah çaşdırıb. Gah qəzəbləndirib, gah sevindirib. Gah düşündürüb, sonra da fikrindən daşındırıb. İnsanın bütün halına sirayət edərək, onunla addımbaaddım gəzib. Ruhun bu halına insan o qədər alışıb ki, həm səbrli olmağı bacarıb, həm də bağışlamağı... Bircə ruh sarsıntısından başqa. Təəssüf ki, bəşər övladı hələ də bu sarsıntıdan xilas ola bilməyib. Zamanında loğmanlar, təbiblər, alimlər bununla o qədər maraqlanıblar ki...**

**Yəqin müsahibimizin hansı peşənin sahibi olduğunu təxmin etdiniz. Kim olduğunu da biz deyək: Azərbaycan Tibb Universitetinin rektoru, Əməkdar müəllim, tibb elmləri doktoru, professor Gəray Gəraybəyli.**



**- Bir nənənin Xalq artisti olan babası Ağasadıq Gəraybəyli haqqında xatirələri təbii ki, var...**

- Bu barədə bir neçə dəfə babam haqqında olan verilişlərdə demişəm. O mənim sevimli babam və dostum idi. Onun kimliyini, yəni məşhur aktyor olduğunu mən artıq 10-cu sinifdə dərk etmişəm. Kiçik yaşlarımda bağa gedəndə mütləq məni özü ilə aparardı. O maşın sürməzdi. Əvvəl metroya minərdik, sonra isə avtobusla gedərdik bağa. 2-3 saat bağda çalışar, nəsə işlər görəndən sonra qayıdardıq. Məktəbin aşağı siniflərində ikinci növbədə oxuyanda valideynlərim işdə olduğundan səhərlər məni özü ilə teatra məşqlərə aparardı. Ən sevimli yerim qrim otağı idi. Dərs vaxtına yaxın evə gətirib geyindirər və məktəbə gedərdik. Hətta belə bir epizod indiyə kimi yadımdadır. İkinci sinifdə oxuyurdum. Babam nə qədər axtardısa, məktəbli formamın qayışını tapa bilmədi. Dərsə gecikdiyimizi görüb, bir iplə şalvarımı bağlayaraq məktəbə getdik. Axşam dərsdən qayıdanda anam bu halımı görəndə xeyli özünə gələ bilməmişdi.

Onunla bağlı xatirələr bu gün də mənim üçün emosional olaraq qalıb. 6-7-ci siniflərdə oğlanlar idmanın müxtəlif növlərinə azarkeşlik edirlər. Mən xokkeyi çox sevirdim. O zaman dünya çempionatlarını izləməyən olmurdu. Valideynlərim mənə izləməyə icazə vermirdilər ki, səhər tez oyanıb məktəbə getməliydim. Babam mənim marağımı görürdü və deyirdi ki, hamı yatandan sonra gələrsən mənim otağıma. Onun otağında balaca ağ-qara televizoru vardı. Məni otuzdurub deyərdi ki, bax, amma səsini al ki, anangil eşitməsin. Ona görə həmişə vurğulayıram ki, babadan savayı, o mənim dostum olub.

**- Məktəbi qızıl medalla bitirmisiniz və istənilən ali məktəbə qəbul olunmaq şansınız yüksək olub. Siz həkim olmağı seçdiniz...**

- Babam aktyor olmağımı istəyirdi. Bakı milyonçusu Hacı Ələsgər Dadaşovun qızı olan nənəm 132 saylı məktəbdə rus dili və ədəbiyyatı müəlliməsi idi və bizim tərbiyəmizlə xüsusi məşğul olub. Babamın istəyinə qarşı nənəm dedi ki, bizim bir aktyorumuz var, bəs edər. Bir bibim erkən yaşında dünyasını dəyişdiyindən, onun övladlarını atamla digər bibim himayəsinə götürmüşdü, lakin onların tərbiyəsilə yalnız nənəm məşğul olurdu. Mən 7, ya 8-ci sinifdə oxuyanda bizdə olan bibim qızı Tibb İnstitutuna daxil oldu, təəssüf ki, o da çox erkən rəhmətə getdi. Onun dərslikləri hər zaman stolun üstündə olardı, çünki daim çalışardı. Anatomiya, fiziologiya, cərrahlıqdan bəhs edən kitabları götürüb vərəqləyərdim. Bu dərsliklərlə təmasdan sonra həkim olmaq qərarına gəldim. Məhz psixiatriyaya marağım isə artıq tələbə ikən mərhum Ağabəy Sultanovun mühazirələrini dinləyəndən, onunla tanış olandan sonra yarandı. Artıq dördüncü kursda onun rəhbərliyi altında Tələbə Elmi Cəmiyyətində elmi iş götürdüm və anladım ki, yolum ancaq budur. Anam kardioloq, atam isə cərrah olmağımı istəyirdi. Lakin mən birmənalı şəkildə psixiatr olacağımı bildirdim.

Ali məktəbi fərqlənmə ilə bitirdikdən sonra təklif olundu ki, Tibb Universitetinin Psixiatriya kafedrasında baş laborant kimi fəaliyyətə başlayım. Təbii ki, qəbul etdim, çünki Ağabəy Sultanov kimi mükəmməl bir peşəkardan öyrənə biləcəyim çox şey vardı.

**- Psixiatr...**

- Psixiatr insanın daxili aləmini başa düşə biləcək bir şəxsdir, eyni zamanda da həkimdir. Psixiatriya çox çətin sahədir və bura sırf həkim olaraq yanaşmaq mümkün deyil. Çünki ruhi xəstə həkimə hücum da edə bilər, ona zərbə də vura bilər. Öz təcrübəmdən bir misal çəkim. Evdə müayinə etdiyim xəstə bir gün sonra hansı yollasa mənim iş yerimi öyrənərək dönərxanadan bir bıçaq oğurlamaqla üzərimə hücum etməyə cəhd göstərmişdi. Lakin bunu bacarmadı, çünki sanitarlar onu dərhal tutdular. Ona görə də psixiatriyaya təsadüfi gələn həkimlər qısa müddət sonra sənətlərini dəyişməyə qərar verir. Bu sahədə qalıb işləyən yalnız daxilən insanları başa düşməyi bacaran və bunu istəyənlərdir. Bir məqamı da vurğulayım. Bu sahənin dünyada yazılmayan bir qanunu var. Psixiatrik diaqnoz həkimlə xəstə arasındakı ünsiyyətin ilk 45 saniyəsi ərzində qoyulur. Baxmayaraq ki müayinə bir saat, xəstə ilə söhbət iki saat çəkə bilər. Lakin məhz ilk 45 saniyə ərzində həkimə aydın olur ki, qarşısındakı nevrozlu, depressiv, şəxsiyyət pozğunluğu olan, ya da psixoz xəstəsidir. İlk dəfə bunu oxuyanda, adi bir deyim kimi qarşılamışdım. Artıq 30 ildən yuxarı olan iş təcrübəm bunu deməyə əsas verir ki, həqiqətən xəstəni gördüyün ilk andan dərhal onun diaqnozunu müəyyən etmək olur.

**- Xəstəyə "sənin dərdinə əlac yoxdur" - demək asan deyil yəqin ki...**

- Biz vaxtilə fərqli cəmiyyətdə yaşamışıq və həmin dövrün xüsusi qanunları olub. Bizə öyrədiblər ki, ağır diaqnozu xəstəyə dərhal demək olmaz, çünki bu xəbər onun üçün əlavə şok, əlavə psixotravmadı və sairə. Amma bu gün müxtəlif Qərb ölkələrində həkim xəstədən diaqnozu gizlədirsə, bu, cinayətə bərabərdir. Mənə görə, bu düzgün deyil. Psixiatriyada belə bir termin var – yatrogeniya. Bunu yeni nəsil həkimlərin əksəriyyəti bilmir. Bu, həkimin səhv davranışı nəticəsində yaranan xəstəlikdir. Yenə bir nümunə çəkim. Çoxdanın hadisəsidir. Vaxtilə orta məktəblərdə şagirdlər rentgen müayinəsindən keçirdi. 16 yaşlı bir yeniyetmə müayinədən keçən zaman rentgenoloq qeyri-iradi deyib ki, səndə sırf "damla ürəyi"dir. İnsanın ürəyi bir qədər bucaq altında yerləşir. Lakin arıq insanlarda ürək damla kimi asılı olur. Bu, əsla patologiya deyil, normal konfiqurasiyanın bir variantıdır. Həkimin bu sözündən şagird kiçik bir şok keçirir. Məsələni heç kəsə bildirmədən yatağa düşür, yerindən qalxmağa qorxur, deyir ki, mənim ürəyim damla vəziyyətindədir, hər hansı kəskin hərəkət ürəyimi qıra bilər. Valideynləri əl-ayağa düşür və yalnız psixiatrın müdaxiləsindən sonra onu həmin vəziyyətdən çıxara bilirlər. Bir həkimin yersiz, təsadüfi kəlməsi nəticəsində travma yarana bilirsə, görün, bilərəkdən xəstəyə üzücü bir diaqnozu deməyin sonu necə ola bilər.

**- Bəs həkim üçün bir xəstə həyatını xilas etmək?**

- Bu, həkim üçün ən yüksək qonorardır. Bu gün bizim emosional həyatımızda hesab edirəm ki, bir qədər məhdudlaşma var. Lakin insan emosiyasız yaşaya bilmir. Təsəvvür edin, axşam gəzintiyə çıxmısan. Bir də görürsən ki, qarşıdakı səkidən biri sənə yaxınlaşıb deyir ki, 10 il əvvəl mənim oğlumu müalicə etmisiz. İndi sizi görüb bir daha təşəkkürümü bildirmək istədim... Bu kiçik ünsiyyətdən sonra keçirdiyin hissləri heç nə ilə əvəz etmək mümkün deyil. Hər dəfə həkim bir insan ömrünü xilas edə bilirsə, düzgün müalicəyə nail olursa, bunu kiçik xoşbəxtlik hesab edirəm. Kaş hər zaman bu nəticəyə nail olaq, çünki tibb sahəsi də əlacsız, çarəsiz qala bilir.

**- İstərdim bir az qorxu hissindən danışaq.**

- İnsan hər hansı bir şəraitə düşəndə, onun həyatı və sağlamlığı üçün təhlükə yaradan situasiya olanda, orqanizmdə müxtəlif sistemlər buna reaksiya, yəni cavab verir. Bura təzyiqin qalxması, qanın laxtalanması, bəzilərində rəngin ağarması və ya qızarması kimi hallar daxildir. Qorxu - təhlükəyə qarşı nəsə etmək reaksiyasıdır. Müəyyən yaşa qədər uşaqlarda qorxu hissi olmur. Yəqin ki, eşitmisiz, bizlərdə belə bir ifadə var – uşağın ilanboğan vaxtı. İki yaşında olan uşaq qorxmadan ilanı əlinə ala bilirsə, yeddi yaşında bunu etmir, çünki artıq dərketmə var. İnsan şəraiti, təhlükəni, stress-faktorları nə qədər dərindən dərk edirsə, onun qorxu və həyəcan hazırlığı da o qədər yüksək olur. Laqeyd insan isə rahatdı, çünki qorxunu hiss etmir. Əslində qorxu normal bir hissdir, əgər əsaslıdırsa.

**- Gəray Gəraybəyli bu günün gəncliyi haqda nə düşünür?**

- Bugünkü gənclikdən razıyam. Lakin bir müəllim və valideyn olaraq nələrinsə dəyişməsini, fərqli olmasını istəyərdim. Ümumilikdə isə gənclər motivasiya deməkdir. Gənclər kreativlik, yeni ideyalar deməkdir. Gənclər cəmiyyəti, bir ailəni irəli aparan qüvvədir. Onların çox istəyi var. Lakin iş ondadır ki, onlar hər şeyin bu gün və dərhal olmasını istəyirlər. Çox halda tutduqları yol, istiqamət düz olur, lakin məhz bu səbirsizlik bəzən onlara mane ola bilir. Bir müəllim kimi onların arasında olduğum üçün özümü həm fərqli, həm də xoşbəxt insan hesab edirəm.



**- Bir peşəkar psixiatrın insanlara demək istədiyi...**

- Onlardan xahiş edərdim ki, bir-birinə qarşı daha diqqətli olsunlar. Bu gün insanlar arasında daha çox qəddarlıq görürəm. Bunu daim insanlar arasında olan biri kimi deyirəm. Kimliyindən, yaşından asılı olmayaraq insanlar arasında bu münasibət artıb, ailə daxilində belə. Çox istəyərdim, insanlar mehriban olsunlar, bir-birini dinləməyi bacarsınlar. Çünki bu gün insanın başqa biriylə bölüşməyə çox ehtiyacı var. Belə halda həm özü, həm də qarşısındakı sağlam olar.

**SÖZARDI:** Söhbətimizin sonunda müsahibə ərzində bizi dinləyən ATU-nun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel xanım özünün də bir sualı olduğunu bildirdi. Onun "psixiatrlar özlərinə psixiatrlıq edə bilirmi" sualına rektor belə cavab verdi: "Psixiatr da insandır, o da bir gərginlik keçirə bilər. Həkim kimi hansısa bir narahatlığı dərmanla yoluna qoyar. Yox, əgər ona psixoterapiya yardımı lazımdırsa, bu daha çox kiminləsə bölüşmək ehtiyacından yarana bilər. Bu da təbiidir".

"525-ci qəzet"

# Tədrisin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzindədir

**Noyabrın 30-da ATU-nun imtahan ekspertlərinin geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, tədrisin keyfiyyətinin yüksəldilməsi daim universitet rəhbərliyinin qarşısında duran əsas məsələlərdəndir.**

## İmtahan ekspertləri ilə görüşdə bir sıra neqativ hallar müzakirəyə çıxarılıb





Bu baxımdan qiymətləndirmə prosesinin daha ədalətli aparılması çox önəmlidir. Bunun üçün də imtahan prosesində diqqət yetirilməsi vacib olan məqamlar və atılacaq addımlar barədə hərtərəfli məlumata malik olmalıyıq. Testlərin hər il yenilənməsini zəruri hesab edən prorektor bildirib ki, suallarda qüsurlar var. O, hələ də əvvəlki illərin bəzi suallarının qaldığını, proqramdan kənar sualların verildiyini diqqətə çatdırıb. Tədrisin aparılma qaydalarından bəhs edən S.Əliyev çıxışında bəzi kafedra müdirlərinin yerində olmadığını, tələbələrin dərs vaxtı nəzarətsiz qaldığını önə çəkib. Belə neqativ halların gələcəkdə təkrarlanacağı halda, ciddi tədbirlərin görüləcəyini deyən prorektor əlavə edib ki, belə problemlər tədrisin nəticələri yoxlanılıb müzakirə edilmədiyi üçün meydana çıxır. Bildirib ki, bu görüşlərin əsas məqsədi imtahanların problemsiz şəkildə keçirilməsi ilə yanaşı, həm də movcud çatışmazlıqların vaxtında öyrənilib aradan qaldırılmasıdır.

İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova imtahan prosesində aparılan yeniliklər və diqqət göstərilməli məqamlardan söhbət açıb: "Hansı kafedrada imtahana hazırlıq yaxşıdırsa, orada nəticələr də ürəkaçandır. Biz həmişə aparılan söhbətlərdə deyirik ki, sanki imtahanlar 1, 2, 3-cü kurslar üçün keçirilir. Nəzəri kafedralar üçün 4-cü kursdan etibarən klinik fənlər başlayır. Bundan sonra keçiriləcək imtahanların heç bir keyfiyyəti qalmır. Biz testi kafedralardan və ekspertlərdən hansı formada qəbul ediriksə, tələbələr də bizə o formada cavab göstərir. Mən demirəm ki, kafedralar tələbələrə test suallarını verirlər. Əsas problem tələbənin yanlış istiqamətə yönləndirilməsidir. Fənni tədris edən müəllim bəzən tələbələrə imtahanda keçən ilin suallarından düşəcəyini deyir. Tələbə də o istiqamətdə hazırlaşır. İmtahan zamanı isə müəllimin dedikləri olmayanda, tələbələr pis vəziyyətdə qalır. Bəzən köhnə test suallarının da düşdüyünə rast gəlinir. Əlbəttə ki, bu barədə lazımi tədbirlər görürük. Bəli, bəzən tələbəyə dərs proqramından kənar suallar da düşür. Təsəvvür edin, proqramdan kənar bir sual 80 tələbəyə düşə bilər".

II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli bildirib ki, kafedralarda tədrisə nəzarət işində problem olması barədə tələbələrdən dekanlığa şikayətlər gəlir: "Biz saat 9:00-da "Latın dili" korpusunda yerləşən kafedralarda olduq və dərs 8:30-da başlasa da, müəllimlərdən gəlməyənlər var idi. Və ya tələbələr otaqda oturub, müəllimlər isə dəhlizdə gəzişir. Bu cür halı heç cür başa düşmək olmur. Bunları görən tələbə o biri günlər dərsə gec gəlir, qayıb yazılanda isə iradını bildirir. Kafedra müdirləri tədris prosesinə nəzarət etməlidir ki, bu çatışmazlıqlar aradan qalxsın".

Bu görüşün obyektiv və subyektiv səbəbləri olduğunu vurğulayan ATU-nun Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov universitetimizin çoxpilləli proqrama qoşulmasından sonra tədris prosesində olan bəzi məsələlərin gündəmə gətirilməsinə zərurət yarandığını söyləyib: "Tələbələrimiz bakalavr, magistratura və aspirantura pilləsində təhsil alırlar. Oktyabr ayında rezidentura pilləsində imtahan keçirildi. Tələbələrin çoxu şikayət etdi ki, sualların bəzilərini universitetdə təhsil alan zaman görüblər. Ona görə də testlər tərtib olunanda kafedralar diqqət yetirməlidir ki, bunu hansı pillə üçün tərtib edirlər. Gələn ildən aparılacaq audit yoxlamalar problemlərin fərqli formada üzə çıxmasına səbəb olacaq".

Departamentin əməkdaşlarının dekanlarla birlikdə kafedralarda yoxlamalar apardığını deyən K.Yaqubov əlavə edib ki, bu yoxlamalarda kafedra müdirləri xoşməramlı formada iştirak etməlidir: "Ekspertlərdən xahiş etmişəm ki, boş olan müəllimlər mühazirələrdə otursun. Belə olan halda, tələbələr mühazirələrə daha diqqətlə qulaq asırlar. Müəllim biləndə ki onun mühazirəsində başqa şəxs oturacaq, o da mühazirəyə fərqli hazırlaşacaq.

Digər məsələ isə testlərin tərtib olunmasındadır. Dekanların nəzərinə çatdırmışdım ki, kollokviumlar bitəndən sonra nəticələrin təhlilini aparaq. Testin məxfiliyi gözlənsəydi, xoşagəlməz mənzərə yaranmazdı. Auditoriyaya girirsən, rezident qrup müəlliminin yerinə dərs keçir. Halbuki, onun dərs keçmək səlahiyyəti yoxdur".

Müzakirələri yekunlaşdıran professor S.Əliyev tədris prosesinin gedişində mövcud olan problemlər barədə lazımi tədbirlərin görüləcəyini söyləyib. O, neqativ halların aradan qaldırılması üçün bir sıra göstərişlər verərək məsul şəxsləri problemlərdən ciddi nəticə çıxarmağa çağırıb.

**M.ƏLƏKBƏRLİ**

**Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov Türkiyənin İnönü Universitetinin Fəxri doktoru seçilib.**

## ATU-nun professoru İnönü Universitetinin Fəxri doktoru seçilib




Fəxri doktor diplomunu azərbaycanlı alimə universitetin rektoru, professor Ahmet Kızılay təqdim edib. Rektor qeyd edib ki, ATU ilə İnönü Universiteti və Qaraciyər Nəqli İnstitutu arasında əlaqələr iki qardaş ölkə arasındakı əməkdaşlığın ən yaxşı örnəklərdən biri sayıla bilər.

Bildirilib ki, hər iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq əlaqələri 2010-cu ildən başlayıb. Əvvəlcə Qaraciyər Nəqli İnstitutunun direktoru, professor Sezayi Yılmazın briqadası professor Nuru Bayramovla birlikdə Azərbaycanda qaraciyər transplantasiyası həyata keçirib. 2012-ci ildə universitetlər arasında müqavilə bağlanıb və əməkdaşlıq rəsmiləşib. 2018-ci ildə İnönü Universitetinin rektoru A.Kızılay Bakıya gəlib, ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb, əməkdaşlıq haqqında müqavilə yenilənib və əlaqələrin inkişafı üçün imkanlar daha da genişlənib.

Qeyd olunub ki, hazırda İnönü Universiteti və Qaraciyər Nəqli İnstitutu ilə əlaqələr yüksək səviyyədədir. Elmi və praktik əməkdaşlıqlar təqdirəlayiq formada davam etdirilir. 2015-ci ildən başlayaraq hər il fevral-mart aylarında Bakı-Malatya Transplantasiya Günləri adlı beynəlxalq konfranslar keçirilir. Qaraciyər Nəqli İnstitutu və ATU-da qaraciyər transplantasiyası üzrə dörd doktorluq dissertasiyası tamamlanıb və tamamlanmaq üzrədir. İndiyədək Azərbaycandan olan 15 nəfərdən çox həkim və tibb bacısı Qaraciyər Nəqli İnstitutunda 1-12 ay müddətində ixtsasartırma keçib.

Görüşdə o da vurğulanıb ki, 2022-ci ildə professor Sezayi Yılmaz ATU-nun "Qonaq professor"u seçilib.

# Görkəmli cərrahın 80 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib

**Dekabrın 8-də Azərbaycan cərrahlıq sənətinin ən görkəmli nümayəndələrindən biri və ölkəmizdə ürək-damar cərrahiyyəsinin əsasını qoyanlardan olan professor Bəhram Aşurovun 80 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib.**





Tədbir iştirakçılarını Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayan Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov bildirib ki, mərhum professor Bəhram Aşurov cərrahiyyədə az invazivlik və anatomiklik prinsiplərini hər zaman gözləyən və tələbələrinə bu prinsiplərə əməl etməyi tövsiyə edən nadir cərrahlardan olub. O, Ümumi cərrahlıq kafedrasına müdir təyin olunduğu gündən orada cərrahiyyənin inkişafına güclü təkan verib. Klinikada antiseptika və aseptika sahəsində bir sıra köklü dəyişikliklər aparmış B.Aşurov ölkədə ilk dəfə olaraq elektrokoaqulyatoru klinik şəraitdə tətbiq edib.

Fəaliyyəti dövründə B.Aşurov "Ümumi cərrahlıq" fənninin tədris planını xeyli təkmilləşdirib və tədrisin keyfiyyətini yüksəltməyə nail olub. O, elmi kadrların hazırlanmasına xüsusi fikir verib və qısa müddət ərzində onlarla alimin yetişməsində misilsiz xidmətlər göstərib.

ATU-nun Ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayev alimin həyatı və elmi fəaliyyəti haqqında məruzə ilə çıxış edib.

Natiq məlumat verib ki, Bəhram Məhəmmədrəsul oğlu Aşurov 1 iyul 1943-cü ildə Qax rayonunda anadan olub. 1960-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. 1966-cı ildə təhsilini fərqlənmə diplomu ilə başa vuran B.Aşurov 1964-66-cı illərdə, hələ tələbəykən Semaşko adına şəhər xəstəxanasının cərrahiyyə şöbəsində tibb qardaşı işləyib.

B.Aşurov 1967-69-cu illərdə Elmi Tədqiqat Kliniki və Eksperimental Təbabət İnstitutunun (ETKETİ) Kardiologiya şöbəsində 2 illik kliniki ordinaturada oxuduğu illərdə görkəmli kardioloq, professor Cahangir Abdullayevin rəhbərliyi altında namizədlik dissertasiyası müdafiə edərək institutda kiçik elmi işçi saxlanılıb, sonra isə elmi katib olub. 1973-cü ildə respublikada yeni təşkil edilmiş damar cərrahiyyəsi şöbəsinə baş elmi işçi vəzifəsinə seçilib. 1979-84-cü illərdə Azərbaycan Səhiyyə Nazirliyinin göndərişi ilə Moskvada ürək-damar cərrahlığı institutunda elmi ezamiyyətdə olan B.Aşurov professor A.Pokrovskinin rəhbərliyi ilə doktorluq dissertasiyasını müdafiə edərək vətənə qayıdıb.

1985-ci ildə ATU-nun Ümumi cərrahlıq kafedrasına müsabiqə yolu ilə dosent seçilən Bəhram müəllim 1986-87-ci illərdə Bakı şəhər Baş Tibb İdarəsinin baş cərrahı işləyib.

1991-ci ildə ATU-da I prorektor vəzifəsinə təyin edilib. Lakin 1992-ci ildə vəzifə ixtisar olunub və o, 1994-cü ilin iyul ayına qədər, ömrünün sonunadək Ümumi cərrahiyyə kafedrasına rəhbərlik edib.

Tədbirdə professor Bəhram Aşurova həsr edilən videoçarxın nümayişindən sonra xatirə çıxışları olub. Professorlar Çərkəz Cəfərov, Fazil Abbasov, Paşa Musayev və dosent Səfa Bağırova alimlə yaxın dostluq əlaqələrindən söz açaraq onun gözəl insani keyfiyyətlərindən, eləcə də tibb elminin inkişafında göstərdiyi böyük xidmətlərindən danışıblar.

Çıxışlarda vurğulanıb ki, unudulmaz dost, görkəmli alim Bəhram müəllim erkən həyatdan getsə də, özündən sonra qoyub getdiyi xeyirxah əməlləri və nəcib insani keyfiyyətləri doğmalarının və onu yaxından tanıyanların qəlbində daim yaşayacaq.

Sonda atasının yolunu davam etdirən ürək cərrahı, Roma Sapienza Universitetinin ürək-damar xəstəlikləri üzrə aparıcı mütəxəssisi Rəsul Aşurov göstərilən diqqətə görə ailələri adından universitetin rektoru, professor Gəray Gəraybəyliyə, Ümumi cərrahiyyə kafedrasının rəhbərliyinə, eləcə də yubiley tədbirinin təşkilatçılarına və iştirakçılarına dərin minnətdarlığını bildirib.

Konfransın ikinci hissəsində isə tanınmış mütəxəssislərin cərrahlığın aktual problemlərinə dair məruzələri dinlənilib.

# Biliklərini elmi fəaliyyətlə zənginləşdirən tələbələr uğur qazanır

## ATU-da tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb olunması üçün həvəsləndirici vasitələr tətbiq edilir

**Azərbaycan Tibb Universitetində tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb edilməsində Tələbə Elmi Cəmiyyətinin böyük rolu var. TEC-in fəaliyyəti, vəzifələri, tələbənin elmi araşdırma götürmə qaydaları və s. ilə bağlı məlumat almaq üçün Cəmiyyətin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənovla görüşdük.**

M.Həsənov deyir ki, adətən universiteti bitirib uğurlu həkim kimi tanınanlar, tələbəlik vaxtı praktika ilə yanaşı elmi-tədqiqat sahəsində də təcrübəyə malik olanlardır: "Elmi fəaliyyəti olmuş məzunlarımız vaxtlarını düzgün idarə edə və alınan məlumatları daha aydın sistemləşdirə bilirlər. Universitetimizin demək olar ki, bütün kafedralarında tələbə elmi dərnəkləri fəaliyyət göstərir ki, bu da tələbələrdə seçəcəkləri ixtisasa marağın inkişafı üçün əlverişli şərait yaradır. Eləcə də onlarda gələcəkdə elmi fəaliyyətlə məşğul olmağa maraq oyadır.

Tələbələrimizin elmi araşdırmalar aparması üçün universitetimizdə Tələbə Elmi Şurası fəaliyyət göstərir və Tələbə Elmi Cəmiyyətinin rəhbəri Elmi Şuraya rəhbərlik edir. Şurada hər fakültənin dekanları, fakültə TEC-lərin elmi rəhbərləri və sədrləri təmsil olunur. Eyni zamanda, fakültə TEC-lərin şuraları fəaliyyət göstərir. Bura fakültə dekanı və fakültə TEC-in rəhbərliyi ilə yanaşı, bütün kurslardan aktiv və tədris, elmi-tədqiqat işləri aparmaq göstəriciləri yüksək olan tələbələr cəlb edilir. Demək olar ki, universitetin əlaçıları və tədqiqat işi aparan tələbələri burada cəmlənir".

TEC rəhbəri bildirir ki, hər tədris ilinin əvvəlində tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunması üçün bütün kafedralara sıx əlaqə yaradılır: "Qeyd edim ki, əvvəllər tələbələr TEC-ə 3-cü kursdan sonra gəlirdilər. Son illər isə yeni qəbul olunmuş tələbələr də ilkin tanışlıq layihəsi çərçivəsində könüllü olaraq üzvlük üçün müraciət edir. TEC-in onların elmi bacarığını və istedadını üzə çıxaracaq bir məkan olduğu tələbələrin diqqətinə çatdırılır, burada ideya və təkliflərini verə biləcəklərini deyirik. Sevindirici haldır ki, son bir neçə ildə TEC-ə axın sürətlənib".

M.Həsənov TEC-də elmi fəaliyyətin tədris (1 və 2-ci kurslar ucun) və elmi-tədqiqat işləri (3-cü kursdan yuxarı tələbələr üçün) istiqamətlərində aparıldığını nəzərə çatdırır. Və bəzən tədqiqat işlərinin 5-10 nəfərlik qruplar şəklində aparıldığını da qeyd edir: "Hər bir kafedrada TEC-ə məsul olan müəllim var. Tələbələr kafedralarda həmin müəllimlərə müraciət edir, istədikləri müəllimi özlərinə rəhbər seçirlər. Onu da deyim ki, tələbənin elmi-tədqiqat işi aparması hələ hansısa bir ixtira etməsi demək deyil. Amma bu, tədris prosesinə kömək edən bir vasitədir. Belə ki, elmi-tədqiqat işlərinə verilən mövzular tədris proqramına daxil olan mövzulara aid olur və tələbə onu daha dərindən öyrənmək imkanı əldə edir.

Fərəhlə demək olar ki, bu gün Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən, tanınmış alimlərin əksəriyyətinin yolu Tələbə Elmi Cəmiyyətindən keçib".



TEC rəhbəri bildirir ki, tələbələrin elmi-tədqiqat işlərinə cəlb edilməsi, motivasiyanın artırılması məqsədi ilə universitetin rektoru, professor Gəray Gəraybəylinin qərarı ilə həvəsləndirici vasitələrdən istifadə olunur, ən yaxşı elmi-tədqiqat işlərinə xüsusi mükafatlar verilir: "Konfranslarımızda qalib olan tələbələrin beynəlxalq konfranslarda iştirakının bütün xərcini universitet öz üzərinə götürür. Ən yaxşı tədqiqat işlərinə görə xüsusi mükafatlar təsis edildiyi üçün rektorumuzun göstərişi ilə elmi işlərə rəhbərlik edən müəllimlərin akkreditasiya balı da yüksəlir ki, nəticədə elmi araşdırmalara maraq xeyli artıb. Əgər tələbə yer tutursa, universitet rəhbərliyi həm elmi rəhbəri, həm də tələbəni mükafatlandırır".

Müsahibimizin sözlərinə görə, universitetlərarası elmi-praktik tədbirlərin keçirilməsi nəzərdə tutulur. Ölkədəki və xaricdəki bir sıra ali təhsil ocaqlarının TEC-ləri ilə sıx əməkdaşlıq qurulub: "Bunun üçün TEC-in nəzdində Xarici əlaqələr bölməmiz fəaliyyət göstərir. Latın Amerikası, ölkələri, Meksika, Özbəkistan, Almaniya, Qırğızıstan, Tacikistan, Türkiyə, Rusiya, İraq, İran və s. ölkələrdən olan tələbələr təşkil etdiyimiz konfranslarda iştirak edib".

TEC rəhbəri sonda qeyd edir ki, universitetdə vahid tələbə elmi məkanının yaradılması yeni və vacib istiqamətlərdən biri kimi görünür. Gələcək planlarda isə "Medical-Forum" elektron elmi jurnalının yaradılması, regional tədbirlərdə sərgilərin təşkil olunması nəzərdə tutulur.

**Qabil ABDULLAYEV**

# Qızılcanın artım tempi təşviş və qorxuya səbəb olmamalıdır

### Professor Musa Qəniyev deyir ki, bu infeksiyanın ölüm əmsalı çox aşağıdır

**Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev son vaxtlar yayılmaqda olan qızılca infeksiyası ilə bağlı öz fikirlərini açıqlayıb. Professor əvvəlcə Ümumdünya Səhiyyə Təşkilatının 28 aprel 2022 tarixli məlumatından sitat gətirib: "Sanitar-karantin məhdudiyyətləri tezliklə aradan qaldırılarsa, bizi, qızılcanın uşaqlar arasında pandemik halı ilə bağlı mütləq risklər gözləyir".**



Mütəxəssisin fikrincə, COVID-19-la bağlı sərt karantin və maska taxılması dövrü sonradan infeksiyaların nisbi "aqressivləşməsini" və sonda epidemiya şəkilli artımını qaçılmaz edirdi. O, 2020-ci ilin aprel ayından başlayaraq, bu barədə dəfələrlə xəbərdarlıq etdiyini, xüsusən ilkin uşaqlıq (1-3 yaş) və birincili uşaqlıq (3-6 yaş) dövründə olanlara maska taxılmasının ciddi səhv olduğunu bildirdiyini xatırladıb.

Qızılcanın hazırkı kəskin artımının labüd olduğunu vurğulayan M.Qəniyev, bunun qorxulu hal olmadığını da qeyd edib: "İstənilən infeksiyanın potensial fəallığını dəyərləndirmək üçün 2 əsas göstərici olur:

*a) yoluxduruculuq qabiliyyəti - Ro indeksi*

*b) letallıq (ölüm törətmə) əmsalı.*

Ro indeksinə görə, qızılca bütün məlum virus infeksiyaları içərisində birincidir. Yəni bir qızılca xəstəsi 11-18 nəfəri xəstələndirir (Ro=11-18). Halbuki, bu indeks COVID-19-da 2-2,2; fəsli qripdə 1,3-ə bərabərdir və s. Odur ki, qızılcaya "heç bir vaxt yoluxmamaq" fikri tamamilə yanlış və əsassızdır. Hər bir insan bu infeksiyaya yoluxmalıdır və yoluxur. Bunun üçün xəstə ilə hətta birbaşa kontakt belə lazım deyildir. İnsanın (uşağın) olduğu otaqda, ondan 2 saat əvvəl qızılcalı xəstə olmuşsa, yenə də yoluxma qaçılmazdır. Odur ki, xəstəliyin hazırda müşahidə edilən artım tempi təşviş və qorxuya səbəb olacaq müstəsna bir hal kimi təqdim olunmamalıdır.

Letallıq göstəricisinə görə isə, qızılcanın kütləvi epidemik halı müşahidə olunan XXI əsrdə törətdiyi ölüm əmi 0,004%-0,28%-dir. Başqa sözlə desək, bu göstəriciyə görə qızılca, bütün məlum virus infeksiyalarından geridədir, yəni qorxusuzdur, yalnız parotit (0,006%) və su çiçəyindən (0,0001%) öndədir".

Professor bildirib ki, bəzi müəlliflər qızılcaya tutulmuş uşağa ikincili virus infeksiyasının (məsələn, qrip, COVID-19 və s. ) yoluxma ehtimalını ön plana çəkir. Amma bu hal nə nəzəri, nə də praktik olaraq mümkün deyil. Çünki viruslara hüceyrədaxili mühitdə "mütləq konkurent antaqonizm" prinsipi xasdır. Yəni, hüceyrəyə ilkin daxil olmuş virus, digərinin daxil olmasını mütləq şəkildə əngəlləyir. Bu hal "keçid qapısının bloklanması" kimi dəyərləndirilir.

Qızılcaya ən həssas insan qrupunun 4 yaşına qədər uşaqlar olduğunu deyən M.Qəniyev ən etibarlı qorunma vasitəsinin peyvəndləmə olduğunu vurğulayıb: "Dünyada qızılcaya qarşı peyvənd 60 ilə yaxındır ki, aparılır. Bizim ölkəmizdə peyvənd "Azərbaycan Respublikasının Milli peyvənd təqvimi" siyasəti üzrə həyata keçirilir və hazırda tibbi sığortanın Xidmətlər Zərfinə daxildir, yəni ödənişsizdir. Bu peyvəndin birinci dozasını hər bir uşaq bir yaşında (dünya üzrə bu rəqəm 83%-dir), ikinci dozasını isə 6 yaşında alır (dünya üzrə 74%). Qızılca zamanı formalaşan təbii immunitet isə, daimi və ömürlükdür. Odur ki, təkrari ağır xəstələnmə riski sıfır faizdir".

Bu gün uşaqların həyatı üçün heç bir xüsusi qorxu və təhlükə olmadığını söyləyən ATU-nun kafedra müdiri, bununla yanaşı, qorunma tədbirləri, ilk növbədə peyvənd olunmanın zəruriliyini önə çəkib.

**Bu tədris ilində Azərbaycan Tibb Universitetində 119 nəfər magistrant təhsil alır. Onların 65 nəfəri birinci, 54 nəfəri isə ikinci kurs tələbəsidir. Bu barədə "Təbib" qəzetinə Rezidentura və magistratura şöbəsinin müdir müavini Əfsanə Məmmədova məlumat verib.**

# Magistrantlar üçün iki növbədə tədris təşkil olunub

## Bu onların oxumaqla yanaşı, işləyə bilməsinə də şərait yaradır

Onun sözlərinə görə, 2023/24-cü tədris ilində universitetimizə 65 nəfər planlı qəbul yeri üzrə DİM yolu ilə 64 nəfər qəbul olunub: "15 nəfər Klinik psixologiya, 15 nəfər Menecment (səhiyyə sahəsi üzrə), 4 nəfər Əczaçılıq texnologiyası, 5 nəfər Əczaçılığın təşkili, 5 nəfər Toksikoloji kimya, 5 nəfər Farmakoqnoziya, 5 nəfər Əczaçılıq kimyası, 5 nəfər Mikrobiologiya, 5 nəfər isə Biokimya ixtisası üzrə magistrant adını qazanıb. Bundan başqa, 1 nəfər xarici vətəndaş universitetin hazırlıq kursundan Menecment (səhiyyə sahəsi üzrə) ixtisasına qəbul olunub.



2-ci kursda 14 nəfər Klinik psixologiya, 15 nəfər Menecment (səhiyyə sahəsi üzrə), 3 nəfər Əczaçılıq texnologiyası, 3 nəfər Əczaçılığın təşkili, 3 nəfər Toksikoloji kimya, 3 nəfər Farmakoqnoziya, 3 nəfər Əczaçılıq kimyası, 5 nəfər Biokimya, 5 nəfər isə Mikrobiologiya ixtisası üzrə magistrant təhsili almaqdadır. Təhsil alanlar arasında iki nəfəri xarici vətəndaşdır".

Sözünə davam edən Ə.Məmmədova vurğulayıb ki, ötən tədris ilində 35 nəfər magistrant müvəffəqiyyətlə dissertasiya işlərini müdafiə edərək magistr adını qazanıb. Həmin məzunların arasında bir nəfər xarici vətəndaş olub.

Bu tədris ilində universitetimizdə magistratura təhsil pilləsində bəzi islahatlar həyata keçirilib. Menecment (səhiyyə sahəsi üzrə) ixtisası üzrə təhsilin səhər növbəsi ilə yanaşı, ikinci növbəsi də təşkil edilib. Bu qərar magistrantların tədrislə yanaşı işləyə bilmələrinə də şərait yaratmaq zərurətindən irəli gəlir. Yəqin ki, gələcəkdə ikinci növbə digər ixtisaslarda da reallaşa bilər".

Söhbət əsnasında müdir müavini magistrantların sessiya imtahanlarından da bəhs edib: "Bu imtahanlar bir qayda olaraq ixtisas fənləri üzrə müvafiq kafedralarda şifahi formatda bilet üzərindən aparılır. Qeyri-ixtisas fənlərdən isə Virtual test mərkəzində test üsulu ilə reallaşır. Aparılan imtahanın nəticəsi 100 bal üzərindən hesablanır. İxtisas fənlərdən orta semestr balı (maksimal 50 bal) nəzərə alınmaqla üzərinə imtahan nəticəsi (maksimal 50 bal) də əlavə olunur. Qeyri-ixtisas fənlərdə orta semestr balı nəzərə alınmır və imtahan nəticəsi maksimal 100 bal üzərindən dəyərləndirilir. Orta semestr balının dəyərləndirilməsində sərbəst işlərin qiyməti (maksimal 30 bal) və ümumi sorğu-sualın nəticəsi nəzərə alınır".

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında uzun illərdir ki, böyrək transplantasiyası əməliyyatları icra olunur. Bu barədə klinikanın Transplantologiya şöbəsinin müdiri Anar Namazov məlumat verib.**

## Tədris Cərrahiyyə Klinikasında xəstəyə sığorta ilə böyrək köçürülüb



Onun sözlərinə görə, bu günlərdə ilk dəfə olaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin xidmətlər zərfi çərçivəsində böyrək transplantasiya əməliyyatı icra edilib. Əməliyyat Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin dəstəyi, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramovun rəhbərliyi ilə həyata keçirilib. A.Namazov donorun xəstənin bacısı olduğunu bildirib. Böyrək köçürülməzdən öncə 50 yaşlı xəstə bütün müayinələrdən keçirilib, böyrək nəql olunan damarların vəziyyəti, ürək göstəriciləri və s. yoxlanılıb.

A.Namazov qeyd edib ki, əməliyyat 4 saat çəkib və uğurla başa çatıb. Donor laparoskopik nefrektomiya olunub. Paralel olaraq, digər masada böyrək xəstəyə köçürülüb. Əsas nüans ondan ibarətdir ki, transplantasiya prosesi xəstə dializ almadan icra olunub. Xəstə hazırda özünü normal hiss edir.

Əməliyyat briqadasına professor Nuru Bayramov, tibb üzrə fəlsəfə doktoru Anar Namazov, Ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri Mirəli Məcidov, eləcə də dr. Elvin İsazadə, dr. Elçin Teymurov, anestezioloq Məmməd Abbasov və nefroloq Orxan Quliyev daxil idi.

## ATU-nun əməkdaşı beynəlxalq sorğuda iştirak edib

**Bir sıra ölkələrdə oruc tutmağın bariatrik cərrahiyyə keçirmiş şəxslərə təsiri ilə bağlı elmi araşdırma aparılıb. Tədqiqatda 11 ölkədən olan 21 mərkəzin nümayəndələri iştirak ediblər. Tədqiqatın müəllifləri sırasında Azərbaycan Tibb Universitetinin əməkdaşı Tariyel Ömərov da var.**



Araşdırmanın işçi qrupunun üzvü, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, t.ü.f.d T.Ömərovun dediyinə görə, araşdırmanın nəticələri hər 3 ildən bir yenilənir. Məqsəd bariatrik və metabolik cərrahiyyə keçirmiş insanlarda orucluq zamanı və bundan sonrakı dövrdə yarana biləcək riskləri minimuma endirmək, xəstələri düzgün istiqamətləndirmək üçün konkret tibbi tövsiyələr hazırlamaqdan ibarətdir.

Araşdırmada iştirak edən xəstələrin orta yaşı 36-40 arası olub. Onlarda daha çox mədə-bağırsaq sisteminin üst qatlarında ağırlaşmalar müşahidə olunub, yalnız pasiyentlərin 4,5 faizində cərrahi müalicəyə ehtiyac yaranıb.

## Növbəti seminarda "Swyer sindromu" müzakirə olunub



**Noyabrın 30-da ATU-nun Tədris Terapevtik Klinikası və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə növbəti seminar keçirilib.**

Adıçəkilən şöbənin müdir müavini, assistent Namiq Xəlilov seminarın nadir endokrinoloji xəstəlik olan "Swyer sindromu"na həsr olunduğunu bildirib. Bundan sonra II Uşaq xəstəlikləri kafedrasının assistenti İlsur Novruzovun həmin mövzuyla bağlı məruzəsi dinlənilib. Məruzəçi nadir endokrinoloji xəstəliklərdən biri sayılan "Swyer sindromu"nun klinikası, patofiziologiyası, diaqnostika üsulları və müalicəsi barədə ətraflı məlumat verib. Qeyd edib ki, bu xəstəliyə çox az rast gəlinsə belə, erkən aşkarlanması, diaqnozunun düzgün qoyulması və müalicəsinin vaxtında aparılması vacibdir.

II Daxili xəstəliklər kafedrasının dosenti Səbinə Məşədiyeva, assistenti Gülarə Axundbəyli, klinikanın Baş həkimi Fəridə Hacıyeva, Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri və II Uşaq xəstəlikləri kafedrasının assistenti Qoşqar İsmayılov da "Swyer sindromu" barədə öz fikirlərini tədbir iştirakçıları ilə bölüşüblər.

Eyni zamanda, uşaq endokrinologiyası üzrə II kurs həkim-rezident Kamran Şərifovun İ.Novruzovun rəhbərliyi altında mövzuya dair əlavə elmi təqdimatı olub. Həmçinin "Ailəvi hiperxolesterinemiya" mövzusunda ətraflı müzakirələr aparılıb.

## Gəncə və ətraf rayonların həkimləri üçün faydalı konfrans

### Uroginekologiya və ginekologiyanın aktual problemləri müzakirəyə çıxarılıb

**Gəncə şəhərində Azərbaycan uroloq və androloqlarının Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Aktual uroandroloji patologiyalara müasir yanaşma" adlı konfransı keçirilib. Konfransın açılışında Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videoçarx təqdim olunub.**



Konfransda Bakıdan 51 alim, həmçinin Gəncə və ətraf rayonlardan 34, ümumilikdə 85 həkim iştirak edib. Elmi-praktik toplantıda uroginekologiya və ginekologiyanın aktual problemləri müzakirəyə çıxarılıb. Müzakirələr zamanı əsasən böyrək daşının perkutan yolla çıxarılmasının yenilikləri, prostat vəzin lazer holep üsulu ilə xaric edilməsi, uşaqlarda anadangəlmə patologiyalara yanaşma və qadın uşaqlıq yolunun sallanması dərəcələri və əməliyyat texnikalarına dair məsələlərə toxunulub. Bundan başqa, uşaqlarda olan anomaliyalar və kişi sonsuzluğunda süni mayalanma metodlarında yeniliklərin müzakirəsi və bu metodların aparılma texnikaları müzakirə edilib, yeni təcrübi biliklər əldə olunub. Bakıdan gəlmiş ixtisaslı həkimlərin, xüsusən də professorlar İlham Əhmədov, Rauf Nağıyev, Fuad Quliyev, Rəşad Şolan və gənc uzmanların təcrübi bilikləri konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Onların praktik təcrübələrindən gənc mütəxəssislərin faydalanması üçün geniş imkanlar yaradılıb.

AMEA-nın müxbir üzvü, ATU-nun professoru Sudeif İmamverdiyev və professor İlham Əhmədovun sədrliyi ilə keçən konfransda ATU-nun Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev və kafedranın dosenti Rəşad Məmmədov məruzələrlə çıxış ediblər.

## 5 saatlıq əməliyyatla xəstəyə süni qida borusu qoyulub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına qida borusunun orta 1/3-də bədxassəli şiş aşkar edilmiş xəstə müraciət edib. Xəstə klinikanın həkimi, professor Fariz Camalovun rəhbərliyi ilə əməliyyat olunub.**



Uğurla başa çatan əməliyyat zamanı xəstənin qida borusu döş qəfəsi daxilində aorta və traxeyadan ayrıldıqdan sonra mədədə süni qida borusu yaradılıb.

Professor F.Camalovun bildirdiyinə görə, xəstədə qida borusu boyun nahiyəsindən, yəni 6-7-ci fəqərə səviyyəsində kəsilib və xaric edilib. Əvəzinə isə süni düzəldilmiş qida borusu qoyulub: "5 saata yaxın çəkən əməliyyatdan sonra xəstə özünü normal hiss edir. Amma həkimlərin nəzarəti altındadır ki, əməliyyatdan sonra onda fistul, anastomoz çatışmazlığı və digər fəsadlar baş verməsin. Bizim tətbiq etdiyimiz üsulda (Oringer) süni qida borusu öndən boyun əzələlərinə, arxadan boyun fəqərələrinin ön fasiyasına fiksə edilir ki, bu da əməliyyatdan sonra anastomoz çatmamazlığı baş verərsə, bu zaman mediastinit kimi ağır fəsadın qarşısını tam alır".

Professor, ölkəmizdə bu əməliyyat üsulunu 27 ildir tətbiq etdiklərini və bu müddət ərzində 120-dən yuxarı xəstə üzərində əməliyyat həyata keçirdiklərini qeyd edib. Əlavə edib ki, onların arasında əməliyyatdan sonra 18 il yaşayanlar olub.

## Havalar soyuduqca, virusların "donu açılır"

### Reyhan Bəylərova: "Kəskin respirator virus infeksiyaları ilə xəstələnmənin 70 faizi uşaqların payına düşür"

**"Kəskin respirator virus infeksiyaları (KRVİ) tənəffüs yollarının zədələnməsi ilə xarakterizə olunan və Yer kürəsində ən çox yayılmış infeksion xəstəliklərdəndir. Dünyada hər il 1 milyarddan çox xəstələnmə halları qeydə alınır ki, bunların 70 faizi uşaqların payına düşür". Bunu ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Reyhan Bəylərova kəskin respirator virus infeksiyaları haqqında danışarkən söyləyib.**

O bildirib ki, bu infeksiyalar 5 yaşa qədər uşaqlar arasında ölüm hallarının əsas səbəblərindəndir: "Çox sürətlə və geniş yayıldığına, müxtəlif növ mikroorqanizmlər tərəfindən törədildiyinə və klinik əlamətləri oxşar olduğuna görə bu infeksiyalara vaxtında diaqnoz qoyulması və müalicənin başlanmasında müəyyən çətinliklər yaranır. Bu xəstəliyin mənbəyi xəstə insanlardır. İnfeksiya hava-damcı yolu ilə yayılır. Xəstə asqıran və ya öskürən zamanı selik damcıları vasitəsi ilə ətrafa milyonlarla virus yayılır və sağlam adamın yuxarı tənəffüs yollarına düşərək xəstələndirir. Çox az hallarda isə məişət-təmas vasitəsi ilə də yayıla bilir. KRVİ əsasən havaların soyuması ilə, xüsusilə payız-qış aylarında artan xəstəliklərdəndir. Əsasən bu xəstəliyə qapalı, insanlar çox olan və lazımi qədər havalandırılmayan məkanlarda yoluxurlar. Onun simptomları çox zaman qəfil başlayır və sürətlə inkişaf edir. Bunlara burun tutulması və axıntısı, quru və ya bəlğəmli öskürək, asqırma, boğaz, baş, sümük və əzələ ağrıları, yüksək temperatur, halsızlıq, döş qəfəsində ağrılar, xırıltılı tənəffüs və s. aiddir".

Həkimin sözlərinə görə, xəstənin müayinəsi zamanı klinik diaqnostika dəqiq olmalıdır: "Belə ki, qripdə intoksikasiya, neyrotoksikoz əlamətləri, baş və oynaq ağrıları, adenovirus infeksiyasında tənəffüs yolları ilə birlikdə bağırsaqların, gözün selikli qişasının və limfoit toxumanın daha çox zədələnməsi olur. Paraqripdə isə intoksikasiyanın zəif olması, qırtlağın zədələnməsi, larengit hiss edilir.

Respirator - sinsitial virus infeksiyası zamanı ümumi əlamətlərlə yanaşı, daha çox tənəffüs yollarının aşağı hissələrinin zədələnməsi ilə əvvəlcə quru, sonra bəlğəmli, tutmaşəkilli öskürək, uşaqlarda isə bəzən astmatik əlamətlər görünür.

KRVİ-nin diaqnostikasında immunoflüoressensiya və immunoferment üsullarından, periferik qanda antitellərin, burun-udlaqdan virus antigenlərinin tapılmasından istifadə olunur. Lakin daha dəqiq diaqnozun qoyulması üçün yüksək həssaslığa malik polimeraza zəncirvarı reaksiyadan, yeni virusun RNT və DNT-sinin qanda, bəlğəmdə və digər ifrazatlarda tapılması üsulu vacibdir".

KRVİ-nin müalicəsindən də danışan Reyhan xanım bildirib ki, bu proses çox zaman ev şəraitində aparılır: "Ağırlaşma olmadıqda, çox hallarda xəstəlik 2-5 günə sağala bilir. Bu virus infeksiyalarının müalicəsində bəzən yüksək hərarətin olması ilə əlaqədar həkimlər antibakterial müalicənin aparılmasına üstünlük verirlər. Lakin antibiotiklər ağır hallarda orta qulağın iltihabı, pnevmoniya, sinusit və s. kimi bakterial ağırlaşmalar zamanı təyin olunmalıdır. Yüngül xəstələr evdə müalicə alırlar. Onlara bədən müqavimətini artırmaq üçün C vitamini və kalorili qidalar, bəlğəmgətirici bitki çayları, ağrıkəsicilər, qızdırmasalıcılar, burun spreyləri, antiseptik məhlullarla qarqara, bol maye qəbulu və s. məsləhət görülür. Ağır formalar zamanı xəstə hospitalizasiya olunmalı, ağırlıq dərəcəsinə uyğun antibakterial, dezintoksikasion müalicə, ürək-damar preparatları, vitaminaterapiya, antiviral dərmanlar, çox ağır hallarda isə qlükokortikosteroidlər və s. təyin edilməlidir".

Gülağa Hacıyev – 100

# Unudulmaz professor, tələbkar pedaqoq



**Ən humanist peşə olan həkimliyə gənclər dərin nəzəri və təcrübi biliklərə yiyələndikdən sonra sahib ola bilirlər. Həkim sənətinə aparan yolda öyrənilən hər bir fənn olduqca vacib və əhəmiyyətlidir. Bu fənlərin içərisində fundamental bilikləri özündə birləşdirərək sərrast mühakimə yürütmək qabiliyyətini, insan orqanizminin quruluş xüsusiyyətlərini gələcək həkimlərə öyrədən "İnsan anatomiyası" əsrlərdən bəri öz yerini tutub, tibb təhsilinin bünövrəsinə çevrilib. Azərbaycan Tibb Universitetinin öz anatom-alimləri ilə fəxr etməyə böyük haqqı var. Belə alimlərdən biri də bu il 100 illik yubileyi qeyd olunan professor Gülağa Şıxbala oğlu Hacıyevdir.**

G.Hacıyev 1923-cü ildə Bakının kəndi Əhmədlidə dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra həkim olmaq arzusu onu Azərbaycan Dövlət Tibb İnstitutuna gətirib, Müalicə-profilaktika fakültəsinə daxil olub. Tələbəlik illəri II Dünya müharibəsinin ən şiddətli dövrünə, əzab-əziyyətli bir zamana təsadüf etmiş G.Hacıyevin gecəsi-gündüzü təhsilə, xüsusən ürəkdən bağlandığı Anatomiya kafedrasına həsr olunmuşdu. Təsadüfi deyil ki, professor K.Ə.Balakişiyev gənc tələbənin fənnə, təşrih sənətinə məhəbbətini nəzərdən qaçırmamış, onun ali məktəbi bitirdikdən sonra İnsan anatomiyası kafedrasında saxlanılmasına şərait yaradaraq gəncin alim və pedaqoq kimi taleyinin formalaşmasına öz təsirini göstərmişdir. 1944-cü ildə kafedrada baş laborant kimi saxlanılan G.Hacıyev professor və kafedra müdiri vəzifələrinə qədər şərəfli bir yol keçib, qüsursuz fəaliyyətinin, peşəkarlığının bir neçə nəsil həkimlərin ali tibb ocağından cəmiyyətə pərvazlanmasında, xalqımızın xidmətində dayanmasında müstəsna xidmətləri olub.

Professor elmi fəaliyyəti ilə çətin sınaqlardan keçib. O, 1953-cü ildə "Saidin və əlin dərisinin innervasiya edən sinirlərin anatomiyasına dair" mövzusunda namizədlik, 1968-ci ildə isə "İnsanın yuxarı ətraflarının və bəzi onurğalıların ön ətraflarının dəri sinirləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1973-90-cı illərdə İnsan anatomiyası kafedrasına rəhbərlik edib. Bununla yanaşı, o, Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin rəhbəri olub, Azərbaycan SSR Elmlər Akademiyasının Terminologiya Komitəsinin tibb bölməsinin sədri, Azərbaycan tibb ensiklopediyasının elmi məsləhətçisi, Azərbaycan Dövlət Tibb İnstitutunun tibbi-biologiya elmləri üzrə metodik komissiyasının sədri vəzifələrində çalışıb.

Professor G.Hacıyev tələbkarlığı, yüksək professionallığı sayəsində rəhbərlik etdiyi kafedranın tədris prosesini hər zaman diqqət mərkəzində saxlayıb, nəzəri və təcrübi biliklərin tələbələr tərəfindən tam mənimsənilməsi üçün əlindən gələnə əsirgəməyib. Tələbələrin zəif cavabı zamanı ilk növbədə müəllimi məzəmmət edən professor, tədris bazasının möhkəmləndirilməsi üçün də böyük enerji sərf edib. Belə ki, o, 200-ə yaxın elmi əsərdə, o cümlədən 4 monoqrafiya, 6 dərslik, dərs vəsaitləri, metodik göstərişlər və 2 səmərələşdirici təklifdə öz zəngin elmi-pedaqoji fəaliyyətini əks etdirib. Əməkdar elm xadimi, akademik V.B.Şadlinski və professor V.V.Bobinlə birgə yazdığı "Çeynəmə aparatı sinirlərinin cərrahi anatomiyası" monoqrafiyası 40 ilə yaxındır ki, anatom, plastik və üz-çənə cərrahlarının fəaliyyətinə istiqamət verən unikal bir kitab olaraq qalmaqdadır.

Bütün həyatını həsr etdiyi Azərbaycan Dövlət Tibb İnstitutunun 1963-71-ci illərdə Stomatologiya fakültəsinin dekanı vəzifəsində çalışmış professor G.Hacıyev bu çətin işdə də öz peşəkarlığına və tələbkarlığına sadiq qalıb. Onun rəhbərliyi altında 8 namizədlik dissertasiyası müdafiə olunub. Gərgin əməyinin, tükənməyən fədakarlığının nəticəsi olaraq "Əməkdar ali məktəb işçisi" adına layiq görülüb. Bundan əlavə, "Şərəf nişanı" ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, "Əmək rəşadəti", "Əmək veteranı" medalları ilə mükafatlandırılıb.

Professor Gülağa Hacıyevin əziz xatirəsi onu sevənlərin, anatomların və həkimlərin qəlbində daim yaşayır.

***İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları***

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin "Təbib" nəşriyyatında Patoloji anatomiya kafedrasının əməkdaşları - professor Ədalət Həsənov, dosent Akif Ələkbərov və dosent Müşfiq Orucov tərəfindən tərtib edilmiş "Patologiya" adlı dərslik və professor Ə.Həsənov, dosent M.Orucov və dosent Elçin Əkbərov tərəfindən tərtib edilmiş "Oral pathology" (ingilis dilində) adlı dərs vəsaiti işıq üzü görüb.**







# Tələbələr üçün yeni tədris vəsaitləri işıq üzü görüb

284 səhifə, 23 fəsildən ibarət olan "Patologiya" dərsliyi İctimai səhiyyə fakültəsinin "Tibb bacısı" və "Fizioterapiya və tibbi reabilitasiya" ixtisaslarının tələbələrinə tədris edilən "Patologiya" fənninin tədris proqramları əsasında tərtib edilib. Dərslikdə ümumi və xüsusi patologiya barədə ətraflı məlumatlar öz əksini tapıb. Kitabdan adıçəkilən ixtisasların tələbələri ilə yanaşı, gələcəyin tibbi feldşerləri, həmçinin rezidentlər və praktik həkimlər də istifadə edə bilər.

İngilis dilində yazılmış "Oral pathology" adlı dərs vəsaiti Stomatologiya fakültəsində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Dərs vəsaitində ağız boşluğu xəstəliklərinin patologiyası haqqında ətraflı məlumat verilib. Dərslik-atlas stilində tərtib edilmiş vəsait 7 fəsildən və 252 səfhədən ibarətdir. I fəsildə ümumi patologiyaya giriş, II fəsildə dişlərin və diş ətinin klinik morfologiyası, III fəsildə dişlərin patologiyası, IV fəsildə paradontun patologiyası, V fəsildə ağız boşluğunun selikli qişasının və dilin patologiyası, VI fəsildə çənə sümüklərinin patologiyası və nəhayət VII fəsildə ağız suyu vəzilərinin patologiyası haqqında müfəssəl məlumatlar yer alıb. Kitab rezidentlər və praktik həkimlər üçün də faydalı ola bilər.

# Əməkdaşlarımız diş həkimlərinin beynəlxalq konqresində iştirak edib



**Noyabrın 24-dən 26-dək Türkiyənin ən böyük konqresləri sırasında yer alan İzmir Diş Həkimləri Cəmiyyətinin XXX Beynəlxalq Elmi Konqresi və Sərgisi keçirilib. Minə yaxın diş həkiminin iştirakı ilə məşhur Tepekule Konqres Mərkəzində keçirilən tədbir çərçivəsində 40-a yaxın konfrans və çoxlu sayda poster-məruzələr baş tutub.**

Müxtəlif ölkələrdən, o cümlədən Avstriya, İtaliya, Bolqarıstan, Serbiya və Omandan dəvət olunmuş elm adamları stomatologiyanın bütün sahələrini əhatə edən elmi və texnoloji yenilikləri konqres iştirakçılarının nəzərinə çatdırıblar. Bundan başqa, elmi axtarışlarla məşğul olan gənc araşdırmaçıların elmi mübadiləsinə kömək məqsədi ilə posterlər təşkil olunub. Alimlərin müxtəlif mövzularda hazırladıqları kurslarda iştirakçılar öz biliklərini yeniləyərək, müasir elmi məlumatlar əldə ediblər. Parodontologiya, implantologiya, estetik stomatologiya, ortopedik stomatologiya və lazerlə müalicəni əhatə edən cərrahiyyə əməliyyatlarının canlı nümayişi maraqla qarşılanıb.

Konqresin sərgi salonunda 50-ə yaxın dental firmanın uyğun qiymətlərə məhsulları təqdim olunurdu ki, diş həkimləri bu imkandan həvəslə yararlanıblar.

Beynəlxalq tədbirdə ölkəmizi təmsil edən nümayəndə heyətinin tərkibində Azərbaycan Stomatoloji Assosiasiyasının üzvü, ATU-nun Uşaq stomatologiyası kafedrasının assistenti, t.ü.f.d. Sevinc Nağıyeva və onun kuratorluğu altında rezidentura pilləsində təhsil alan Sona Məmmədova da yer alıblar.

# Rezidentlərə kliniki neyrofiziologiyaya dair seminar keçirilib

**ATU-nun Tədris Terapevtik Klinikasında Nevrologiya kafedrasının rezidentləri üçün "Kliniki neyrofiziologiyada müayinə üsulu olan elektroensefaloqramın (EEQ) praktiki nevrologiyada istifadəsi" mövzusunda seminar keçirilib.**



Rezidentura və Magistratura şöbəsinin təşkilatçılığı ilə baş tutan seminara adıçəkilən şöbənin müdir müavini, assistent Namiq Xəlilov moderatorluq edib. O, universitet rəhbərliyinin gənc həkimlərin elmi və praktik fəaliyyətinə həmişə xüsusi önəm verdiyini və müzakirəyə çıxarılan mövzunun praktiki nevrologiyada əhəmiyyət daşıdığını bildirib.

Bundan sonra Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli mövzuyla bağlı öz fikirlərini bölüşüb və kafedranın əməkdaşı, t.ü.f.d. Kamal Əliyevi auditoriyaya təqdim edib. Məruzəçi öz mühazirəsində bu sahəyə dair qısa şəkildə məlumat verərək, kliniki neyrofiziologiyada müayinə üsulu olan elektroensefaloqramın praktiki nevrologiyada tətbiqi və onun metodologiyası, həmçinin istifadə olunan avadanlıq barədə danışıb.

Məruzədən sonra EEQ-in yaşla bağlı xüsusiyyətləri, normal yuxu vaxtı qeyd edilən EEQ dəyişiklikləri, prosedur zamanı qeydə alınan normal və patoloji dalğalardan geniş söhbət açılıb.

Sonda Tədris Terapevtik Klinikada epilepsiyadan əziyyət çəkən xəstələr üzərində aparılan tədqiqatlar zamanı müşahidə olunmuş maraqlı hallar, eləcə də xarici ölkələrdə belə xəstələr üzərində aparılmış EEQ monitorinqdən video-nümunələr göstərilib.

# ATU-nun əməkdaşı ictimai səhiyyə kursuna qatılıb

**Ümumdünya Səhiyyə Təşkilatının "Avropada İctimai səhiyyə üzrə 2-ci Liderlik kursu" keçirilib. Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi Aygün Babayeva kurslarda iştirak edib.**



Builki kurs ÜST-ün Avropa üzrə Regional idarəsi və Bordo Universiteti, xüsusilə də onun İctimai səhiyyə məktəbi (ISPED) tərəfindən, rəqəmsal ictimai səhiyyə üzrə magistratura proqramına əsasən, Fransa Milli Sağlamlıq və Tibbi Tədqiqat İnstitutunun (Inserm) "Bordo əhalinin sağlamlığı üzrə tədqiqatlar mərkəzi" və Maastrixt Universitetinin Tibbi qulluq və ictimai səhiyyə tədqiqatları institutu (CAPHRI) ilə əməkdaşlıqda təşkil olunub.

Bu təşəbbüs ÜST-ASPHER peşəkarlıq üzrə yol xəritəsinə uyğundur. Yol xəritəsində getdikcə artmaqda olan ictimai sağlamlıq ehtiyaclarına cavab olaraq, sahələrarası və fənlərarası yanaşmalar vasitəsilə səriştənin təkmilləşdirilməsinin ictimai səhiyyə sahəsində kadrların effektiv şəkildə idarə olunması üçün əhəmiyyəti vurğulanır.

Kursda müvəffəqiyyətlə iştirak edərək 3 qiymətləndirmə və yekun imtahandan uğurla keçən əməkdaşımıza sertifikat təqdim olunub.

# Tələbələrin sevimlisi

**Bu il tələbələrin sevimlisi, ATU-nun Normal fiziologiya kafedrasının dosenti Aqil Xosrov oğlu Əliyevin 70 yaşı tamam oldu.**

Şərəfli ömür yolu keçən Aqil Əliyev 1953-cü ildə Ağdam rayonunun Xındırıstan kəndində doğulub, 1970-ci ildə həmin kəndin orta məktəbini əla qiymətlərlə bitirib. 1972-78-ci illərdə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunda təhsil alıb, tələbə olduğu müddətdə institutun ictimai həyatında fəal iştirakına görə çoxsaylı mükafatlara və fəxri fərmanlara layiq görülüb, institutu fərqlənmə diplomu ilə bitirib.

1976-cı ildən 1981-ci ilədək institutun komsomol təşkilatında rəhbər vəzifələrdə işləyib, 1972-ci ildən 1981-ci ilədək hər il tələbə inşaat dəstələrində müxtəlif vəzifələrdə çalışıb. 1978-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Əməkdə fərqlənmə medalı" ilə təltif olunub.

1981-84-cü illərdə Normal fiziologiya kafedrasında aspirantura təhsili alıb, 1984-cü ildən 1996-cı ilədək kafedranın assistenti, 2004-cü ilədək kafedranın baş müəllimi vəzifəsini daşıyıb, 2004-cü ildən kafedranın dosentidir.

1987-1991-ci illərdə ATİ-nin hazırlıq şöbəsində dekan müavini kimi fəaliyyət göstərib. 1995-ci ildə apardığı elmi tədqiqatların nəticəsi olaraq elmlər namizədi alimlik dərəcəsi alıb. İndiyədək A.Əliyevin müəllifi olduğu 71 elmi və tədris işləri dərc edilib ki, bunlardan 19 elmi iş xarici ölkələrdə çap olunub.



2009-cu ildə "Emosiya, motivasiya və ali sinir fəaliyyəti" adlı tədris-metodik vəsait dərc etdirib. Normal fiziologiya fənninin daha yaxşı mənimsənilməsi üçün kafedramızda ilk olaraq bütün mühazirə mövzuları üzrə animasiyalı slaydlar tərtib edib.

ATU-nun tələbələri üçün "Fiziologiyadan təcrübə dərslərinə rəhbərlik", "Normal fiziologiya", Əczaçılıq fakültəsinin tələbələri üçün "Normal fiziologiya" adlı dərsliklərin, rezidenturaya qəbula hazırlaşanlar üçün "Нормальная физиология" adlı dərs vəsaitinin (Пособия для поступающих в резидентуру, 565 ст. Баку 2019) müəllifidir.

2011-ci ildən etibarən Dövlət İmtahan Mərkəzinin Rezidenturaya qəbul şöbəsinin eksperti kimi testlərin hazırlanmasında və qəbul imtahanlarında iştirak edir. 2015-ci ildən etibarən kafedranın test suallarının hazırlanmasında və semestr imtahanlarının təşkilində ekspert kimi fəaliyyət göstərir. 2017-ci ildən ATU-nun Nəzəri Fənlər Üzrə Problem Komissiyasının üzvü, II MPF-nin Elmi Şurasının üzvü, fakültə TEC-in elmi rəhbəridir.

Ailəlidir, iki övladı, dörd nəvəsi var.

Sevimli Aqil müəllimi 70 illik yubileyi münasibəti ilə təbrik edir və ona bundan sonra da çox sevdiyi müəllimlik peşəsində böyük uğurlar arzulayırıq.

**Normal fiziologiya kafedrasının əməkdaşları**

# ATU XV universiadanın qalibi olub



**Dekabrın 2-də Memarlıq və İnşaat Universitetinin idman kompleksində cüdo idman növü üzrə ali təhsil müəssisələri arasında XV Respublika Universiadası keçirilib. Azərbaycan Tibb Universiteti də daxil olmaqla yarışa 6 universitetdən 70-dən çox tələbə cüdoçu qatılıb.**

ATU-nu əməkdar məşqçi Ələkbər Əliavsarovun rəhbərliyi altında müxtəlif çəki dərəcələrində 7 tələbə təmsil edib və qaliblər müəyyənləşib. 60 kq çəkidə Namiq Hacıbəyov, 90 kq çəkidə Sərxan Əhmədov və 100 kq çəkidə Azər Məmmədov I, 66 kq çəkidə Musa Xalid və 73 kq çəkidə Asim Təhməzzadə II, 81 kq çəkidə isə Həmid Quliyev III yerə layiq görülüblər.

Yarışların ümumi nəticəsinə görə, Azərbaycan Tibb Universitetinin komandası Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş XV Respublika Universiadasının qalibi olub.

# Qayğıkeşliyi, sadəliyi və nəcibliyi ilə yadda qalan həkim-alim

**Azərbaycan tibb və elm ictimaiyyətinə ağır itki üz verib. Görkəmli mama-ginekoloq, tibb elmləri namizədi, Azərbaycan Tibb Universitetinin II Mamalıq-ginekologiya kafedrasının dosenti, əməkdar müəllim Şölə Cabbar qızı İsmayılova ömrünün 91-ci ilində dünyasını dəyişib.**

Ş.İsmayılova 1933-cü il martın 5-də Azərbaycanın şeir-sənət, saz-söz ocağı olan Qazax rayonunda anadan olub. Orta məktəbi "əla" qiymətlərlə başa vuran Şölə xanım 1951-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olub, 1957-ci ildə institutu "Fərqlənmə" diplomu ilə bitirərək, keçmiş N.K.Krupskaya (indiki Ş.M.Ələsgərova) adına 5 saylı kliniki doğum evində mama-ginekoloq kimi həkimlik fəaliyyətinə başlayıb.

1970-ci ildə müsabiqə yolu ilə Tibb İnstitutunun II Mamalıq-ginekologiya kafedrasına assistent vəzifəsinə seçilib. 1978-ci ildə Kazan şəhəri Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi alıb. 1981-ci ildə həmin kafedrada dosent vəzifəsinə seçilib və ömrünün sonuna kimi bu vəzifədə işləyib. O, uzun müddət kafedranın tədris-hissə müdiri vəzifəsini yerinə yetirib, dərslərin müasir səviyyədə aparılmasına nəzarət edib.

Fəaliyyət göstərdiyi illər ərzində Ş.İsmayılova saysız-hesabsız qadınları analıq səadətinə qovuşdurub, eləcə də yüzlərlə qadını ölümün pəncəsindən qurtarıb. İstər kafedra əməkdaşları, istərsə də doğum evinin həkimlərinin təcrübi bacarıqlara yiyələnməsində onun danılmaz əməyi var.

Şölə xanım 1961-ci ildə ali dərəcəli həkim, 2008-ci ildə isə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülüb. Onlarla elmi məqalənin müəllifi, "Mamalıq" və "Ginekologiya" dərsliklərinin həmmüəlliflərindən biridir.



Qayğıkeşliyi, sadəliyi, nəcibliyi və təvazökarlığı ilə hər kəsin böyük hörmətini qazanmış müəllim, peşəkar mama-ginekoloq və alim Ş.İsmayılovanın əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

*II Mamalıq-ginekologiya kafedrasının əməkdaşları*

## Allah rəhmət eləsin!

ATU-nun rektorluğu universitetin Onkoloji Klinikasının direktor müavini Nigar Mehdiyevaya atası **professor İsmayıl Sadıqovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ATU-nun rektorluğu İctimai fənlər kafedrasının professoru **Fəxrəddin Məmmədovun** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İnsan anatomiyası və tibbi terminologiya, Uşaq stomatologiyası, I Mamalıq və ginekologiya kafedralarının əməkdaşları, REA-nın akademiki Vaqif Şadlinski, professorlar Qoşqar Əliyev və Mübariz Allahverdiyev Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyevaya həyat yoldaşı **Yaşar müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Mamalıq və ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Ceyran Paşayevaya qaynanası **Kəmalə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin kollektivi, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın baş müəllimi Fuad Məmmədova atası **professor Fəxrəddin Məmmədovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın baş preparatoru Elnarə Nağıyevaya əzizi **Nizami bəyin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assistenti Aytəkin Tağıyevaya atası **Əvdil Əhmədovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları İctimai səhiyyə fakültəsinin Həmkarlar Komitəsinin sədri Səidə Hacıyevaya əzizi **Röyalə Hacıyevanın** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

### Fakültənin dekanı:

- Stomatologiya fakültəsi

### Kafedraların müdirləri:

- Qidalanma və tibbi ekologiya kafedrası
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası
- Urologiya kafedrası
- Terapevtik stomatologiya kafedrası
- Tibbi-biologiya və genetika kafedrası

### Kafedraların professorları:

- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer

### Kafedraların dosentləri:

- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 2 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer

### Kafedraların assistentləri:

- II Daxili xəstəliklər kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,25 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 2 yer

### Kafedraların baş müəllimləri:

- Normal fiziologiya kafedrası - 3 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir: AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14 Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətdə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın artırılması" mövzusunda təlimlərdə iştirakı barədə sertifikat.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0021
Sayı 1000